# "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri əsasında:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa (həmin qanunun 13-cü maddəsində göstərilmiş prinsip nəzərə alınmaqla) uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin qanunun 21.1-ci maddəsinə uyğun olaraq, "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanı ilə təsdiq edilmiş 2 və 3 nömrəli əlavələrdə müəyyən edilən dövlət rüsumunun məbləğləri nəzərə alınmaqla, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı təkliflərini on beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. həmin qanunun pozulmasına görə inzibati məsuliyyət müəyyən edən qanun layihəsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna (onun 13-cü maddəsində göstərilmiş prinsip nəzərə alınmaqla) uyğunlaşdırılmasını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etsin;

1.1.5. həmin qanunun 5.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, beynəlxalq təşkilatların və beynəlxalq səviyyədə tanınmış təşkilatların verdikləri və Azərbaycan Respublikasında tanınan icazələrin siyahısını və onların Azərbaycan Respublikasında tanınması qaydasını bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.2. həmin qanunun 6.3.3-cü maddəsinə uyğun olaraq, verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin siyahısını bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin qanunun 7.0.8-ci maddəsinə uyğun olaraq, lisenziya blanklarının və əlavələrinin formasını, habelə lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması qaydasını bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanunun 8.4-cü maddəsinə uyğun olaraq, lisenziyaların və icazələrin vahid reyestrinin aparılması qaydasını bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanunun 16.3-cü maddəsinə uyğun olaraq, tənzimləyici təsirin təhlili qaydasını iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin qanunun 3 nömrəli əlavəsinin 41-ci, 53-cü və 57-ci maddələrinə uyğun olaraq, müvafiq radioelektron vasitələrini və güc hədlərini bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinin ikinci cümləsində, 6.1-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 4.3-cü maddəsinin ikinci cümləsində, 4.4-cü maddəsində, 5.2-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 6.3.3-cü maddəsində (birinci halda), 7.0.8-ci maddəsində (hər iki halda), 8.4-cü, 16.3-cü və 31.2-ci maddələrində, həmin qanunun 3 nömrəli əlavəsinin 41-ci, 53-cü və 57-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin qanunun 1.0.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini:

2.3.1. həmin qanunun 1 nömrəli əlavəsində nəzərdə tutulmuş lisenziya tələb olunan fəaliyyət növləri üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;

2.3.2. həmin qanunun 2 nömrəli əlavəsinin 1-ci maddəsində nəzərdə tutulmuş lisenziya tələb olunan fəaliyyət növü üzrə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (Azərbaycan Respublikasının ərazisində xarici hüquqi şəxslər, yaxud əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən təsis edilmiş hüquqi şəxslərin, o cümlədən birbaşa və ya dolayı yolla xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslərin öz mühafizəsini təmin etməsi ilə bağlı) və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (digər hallarda);

2.3.3. həmin qanunun 2 nömrəli əlavəsinin 2-ci maddəsində nəzərdə tutulmuş lisenziya tələb olunan fəaliyyət növləri üzrə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti;

2.3.4. həmin qanunun 2 nömrəli əlavəsinin 3-cü və 4-cü maddələrində nəzərdə tutulmuş lisenziya tələb olunan fəaliyyət növləri üzrə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir;

2.4. həmin qanunun 1.0.12-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir;

2.5. həmin qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi həyata keçirir;

2.6. həmin qanunun 6.3.3-cü maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Vergilər Nazirliyi və ya müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi həyata keçirir.

3. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinin tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Lisenziyalar və icazələr" portalının əsasnaməsinin layihəsini Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 aprel 2016-cı il*